Esmira İsmayılova
Filologiya üzrə fəlsəfə doktoru



# Ağdam bazarı Aqil Abbasın xatirə aynasında

## Millət vəkilini bazardan yazmağa nə vadar etdi?...

**"Atom bombası yoxdu! Olsaydı, Ağdam bazarında olardı!". Dilimizdə kobud səslənsə də, Aqil Abbasın Ağdam bazarı ilə bağlı yazdığı xatiratı bir ifadə ilə ifadə etmək olar-"Bomba" yazı! Səmimi, lakonik, ürəyə yağ kimi yazılan bu xatiratın ən üstün cəhəti həqiqətin bəzək- düzəksiz, çılpaq əksidir. Yazıçı Aqil Abbas kimlərinsə qınaq obyektinə çevriləcəyindən, fikrinin yaxşı ya pis qəbul ediləcəyindən çəkinməyərək Ağdam bazarı, bu bazardakılar, bazardan payını alanlar və s. haqqında bildiyi, xatırladığı çox şeyi, illər uzunu qəlbini göynədən xatirələrini yazıya töküb, ömrünün ahıl çağlarında içini boşaldaraq sanki bu ağır xatirə yükündən azad olmaq, belini dikəltmək, ürəyini boşaltmaq istəyib. Hər şeyi ona görə demirəm ki, bəlkə də Aqil Abbas yaddaşını yaxşıca silkələsə, bu yazının davamını da gətirə biləcək və bəri başdan deyim ki, bu çox əla olardı!**

Bazar məhfumuna cəmiyyətin münasibəti birmənalı olmasa da, "bazar adamı" ifadəsi çox hallarda mənfi məna daşısa da, bazarlar ta qədimdən Şərqdə mədəniyyətin, inkişafın, tərəqqinin göstəricilərindən olub. "Min bir gecə" nağıllarında, İran, Türkiyə, Orta Asiya ədəbiyyatında çox əsərlərdə şərq bazarlarının təsvirləri geniş yer alıb. Azərbaycan ədəbiyyatında nə isə yadıma düşmür, xatırlamıram belə səhnələri. Ola bilsin ki, mütaliə etmədiyim hansısa bir bədii nümunədə bazarlarımızla bağlı səhnələr əks etdirilib. Olsun. Keçək əsas mətləbə. Yazılı və şifahi mediada bazarlar ancaq bayramqabağı günlərdə, qiymətlər bahalaşanda gündəmə gəlib. Azərbaycanda, paytaxt Bakıda, ya hər hansı rayonda, şəhərdə bazarlarımız, onların tarixi, bu bazarlardan çörək qazananlar, "bazar" adamları və s. barədə nə karlı videomateriala rast gəlmişəm, nə də tutarlı araşdırma yazıya, bədii oçerkə. Halbuki, bayaq dediyim kimi, bazarlar maddi mədəniyyətimizin bir parçasıdır, məişətimizin güzgüsüdür, yaşayışımızın barometridir, milli mədəniyyətimizin öyrənilməsində, tanıtımında böyük rola malikdir . Elə indinin özündə də hansı rayonda həyat səviyyəsinin daha yüksək, insanların daha elit yaşamını görmək istəyirsinizsə, mütləq bazarına baş çəkin. Alıcı-satıcı danışığını, malların çeşidini, düzülüşünü izləyin, nə informasiya lazımdırsa əldə edəcəksiniz.

Yazarlar yaxşı bilir ki, sənədli xatirə yazısı yazmaq bədii əsər yazmaqdan qat-qat çətin, həm də məsuliyyətlidir. Yazıçı Aqil Abbas səmimiliyi, həmişəki təbii yazı tərzi ilə bu məsuliyyətin öhdəsindən gəlməyi bacarıb. Birdəki o təkcə bazardan yazmayıb ki? Bazarla yanaşı aptekdən, çayxanalardan, taksi dayanacaqlarından, yeməkxanalardan-cəmiyyətin real dolğun obrazı olan bazar insanlarından, onların arzu və istəklərindən, həyata baxışlarından, maraqlarından yazmaqla Ağdam bazarının bədii obrazını ustalıqla cızıb. Ağdam bazarı Aqil Abbasın təqdimatında XX əsrin 80-cı illərinin Azərbaycanının alt qatıdır, görünməyən tərəfidir. Şəklin elə bir üzüdür ki, şair və yazıçılar ondan yazmağa zaman-zaman utanc hiss ediblər, bazar yazarı sayılacaqlarından çəkiniblər, bazardan yazılan yazının bazar ədəbiyyatı adlanması qorxusu, vahiməsi canlarına hopub, onları qorxudub. Bu vahimə bəlkə indi də var. Amma bu, Aqil Abbası qətiyyən narahat etməyib. Bəlkə Millət vəkili olduğuna, bəlkə ahıl yaşına, nəyə görəsə açıb töküb içini bu yazısında. İndi də yazmayıb nə vaxt yazacaqdı ki? Birdəki kimsə yazmalıdır bunları ya yox? Deyərdim ki, bu istiqamətdə uğurlu bir ilkə imza atıb Aqil Abbas. Ağdam bazarını ədəbi mövzu səviyyəsinə qaldırdığına, ədəbi obraz kimi canlandırdığına görə! Lənkəranın tarixən məşhur iki bazarı olub-Böyük Bazar, Kiçik bazar. Bu bazarlardan kimsə yazıbmı, tarixini araşdırıbmı? Çox təəssüf ki, yox!



...Mən Ağdamda cəmi bir dəfə olmuşam. Bu rayonun çiçəklənən vaxtında-1983-cü ildə. Ağdamın Gİllücə kəndindən olan tələbə yoldaşımız Sayadın nənəsinin hüzr mərasiminə getmişdik. I kursda oxuyurduq onda. Söz vaxtına çəkər deyiblkər. İlin günün bu vaxtları, yaz fəsli idi elə. O vaxt Ağdamın görünüşü, gözəl evləri, dadlı yeməkləri çox xoşuma gəlmişdi və yediymiz göy qutabının, göy qovurma plovun dadı bu gün də damağımdadır. Sonradan ermənilər tərəfindən Ağdamın işğal edilməsi məni digər rayonlardan daha çox mütəssir etdi. Ordakı gözəl yaşayışı, bağları xatırlayıb ürəkdən arzulayırdım ki, o torpaqlar yenə əzəli sahibinə qayıtsın, yaşayış səviyyəsi əvvəlkindən də gözəl olsun. Amin deyib keçirəm Aqil Abbasın yazısına. Nədir bu yazıdakı özəllik, çəkim gücü?Təbiilik, həyat həqiqətinə yazıçı sadiqliyi, müəllifin nəql etdiklərinə özünün şahidliyi, bir də adı çəkilən konkret şəxslərə istinad. Aptekçi Tələt əmi, Həsən kişi, Süleyman müəllim, Ənvər müəllim, qəssab Temir kişi, Ağdamın ticarət naziri İbrahim əmi, Möhü dayı, dəmirçi Bağır, bəy Sabir, sorağı Mərkəzi Komitədən gələn Xanəhməd, Abı xanım, Xuraman xanım Aqil Abbasın qələmində elə real təsvir ediliblər ki, onların rəsmi, bədii obrazları tamlığı ilə gözlərimiz qarşısında canlanır. Bütün rayonların Leninin mavzoleyinə qədər teleqram vuran Həsən kişiləri vardı o zamanlar. Yazıda Ağdam Rayon Partiya Komitəsinin 1-ci katibi ilə Həsən kişinin dialoquna diqqət etmisinizmi? Ləzzət eləyir!

Day narazılığın yoxdur ki?

**- Allaha şükür, yoxdur. Ayda üç yüz manat maaş alıram.**

**- Həsən kişi, üç yüz manat da mən alıram.**

**Həsən kişi gülüb deyir:**

**- Yoldaş katib, baxma, yenə sənin çax-çuxun olar.**

**Birinci katiblə bu tonda danışmaq hər kişinin hünəri deyildi sovetlər ittifaqının bərkgedən çağlarında, M. Qorbaçovun yenidənqurma havasının hələ çalınmadığı dönəmdə.**

Müəllif Ağdam bazarında müğənnilərin toy tutmaq üçün çayxanalara yığışmasının da gözəl bədii təsvirini yaradıb.

Bu təsvirdə Qarabağ, Ağdam toylarının əsl mənzərəsi açılır, adət-ənənələri xatırlanır. Yaşlı oxucu həmin illəri yaddaşında bir daha canlandırır-paltarbiçmədən tutmuş gəlin köçürməyədək olan toy adətləri yaddaşının bir parçasına çevrilir. Ağdamın tanınmış musiqiçiləri, onların qəribə adətləri ilə bağlı da yazıda maraqlı məlumatlar var: "Camaat da yığışardı yolun qırağına ki, Rəmiş indi piano çala-çala keçəcək. Çiynində də Rəmişin özünə oxşayan bir meymunu vardı. Meymunun boynunda enli bir qızıl zəncir vardı və zəncirdə də qızıl bir lövhə, üstündə də meymunun adı yazılmışdı: "Ramin". Hansısa çox sevdiyi bir dostunun oğlunun adı idi".

Aqil Abbasın Ağdam bazarından bəhs etdiyi yazı ona görə təsirli alınıb ki, burda həyat həqiqətinə istinad yazıçı bəzəməsindən daha güclüdür. "Bazarın özü şəhərin içində bir rayon idi. Birinci katibi də vardı, ispalkomu da, rəisi də, hətta prokuroru da. Rayonun nə rəhbərliyi, nə də güc strukturları bazarın işinə qarışmazdı, aylıq haqlarını alırdılar". Bu mənzərə təkcə Ağdam bazarına deyil, bütün bazarlara xas idi və deyilənlərə inansaq bu gün də belədir.

"Bir dəfə rayonun, bazarın yox ey, rayonun ispalkonu Aydın müəllim bazarlıq eləmək üçün sürücünü göndərmir, maraq üçün özü gəlir. İçəri keçəndə yolun ortasında oturmuş pinəçini görür və bazarın birinci katibinə deyir ki, bunu burdan götürün, qoyun bir kənara. Tez bazarın ispalkomu kişinin şey-şüyünü yığır, özünü də alır qucağına qoyur bir kənara. Gecə Mərkəzi Komitədən bir məmur Aydın müəllimə zəng edir:

**- Qardaş, bizim də o şəhərdə bir yaxın adamımız var, bu gün onu incitmisən.**

**- Kimdi?**

**- Bazarda oturan pinəçi.**

**Yəni bazardakı pinəçinin də hardasa yuxarılarda bir dostu-tanışı vardısa, görün alverçilərin, satıcıların haralarda adamı vardı. Ona görə rayon rəhbərliyi bazarın işinə qarışmırdı".**

Aqil Abbas sənətən "qəzetəçi" olduğundan Ağdam bazarında qəzetlərin satışı ilə bağlı məsələlər də jurnalist diqqətindən yayınmayıb, yazıya köçürülüb: "Möhü dayının bazarın içində bir qəzet köşkü vardı. Bura ermənicə də "Kommunist" qəzeti göndərirdilər. Möhü dayı hirslənərdi:

- Ə, mən bu qəzeti kimə satım? Heç şəhərdəki ermənilər də ermənicə oxuya bilmir. Bu qəzeti adətən tum satanlara elə müftə verərdi, "Vışka" qəzetini isə ət satanlar alırdı. Çünki onlar heç vaxt ermənicə "Kommunist" qəzetinə ət bükməzdilər. Amma burda elə qəzetlər vardı ki, onları öz daimi müştərilərinə altdan və baha qiymətə satardı.

Məsələn, "Literaturnaya qazeta"nı Möhü dayı 5 manata, "Futbol-xokkey" qəzetini 3 manata, "Sovetskiy sport"u 2 manata, "Qobustan" jurnalını isə 5 manata".

Ağdamlılar keçid dövründə belə zamanın nəbzini tutan, hər cür bazardan baş çıxaran adamlar olub. Özü də təkcə kişiləri yox, həm də qadınları. Ağdam bazarını bazar edən də elə onların səriştəliliyi, hər cür vəziyyətdən baş çıxarmaları olub: "Çox yox, iki alverçi sirri açım. Rusiyadan Ağdama tonlarla konserv göndərilirdi, şəhərdə isə bu konservini yeyən yox idi, qalırdı anbarlarda. Abı xanım gedirdi Rusiyaya müqavilə bağlayırdı. Vaqonla konservanı göndərirdi Rusiyaya, əvəzində də vaqonla biri 1 manat 50 qəpikdən "Marlboro" vurub gətirirdi şəhərə. Və onu da 2 manat 50 qəpikdən verirdi alverçilərə, alverçilər də üstünə 50 qəpik qoyub satırdılar. Ətraf rayonlardan gəlib qutu-qutu alverçilərdən "Marlboro" alan ticarət işçiləri də aparıb öz rayonlarında dörd manata satırdılar. Bazarda dükanı olan Xuraman xanım isə gedirdi Rusiyaya corab istehsal edən fabrikə. Bu fabrik "brak" corabları qırx qəpiyə satırdı. Xuraman xanım da zavod rəhbərliyinə hər corabdan on qəpik artıq verib "brak" olmayan corabları "brak" adıyla "aformit" elətdirib gətirirdi şəhərə və bir manata alverçilərə verirdi. Alverçilər də üstünə onyirmi qəpik qoyub satırdılar".

Aqil Abbasın Ağdam bazarı ilə bağlı yazısı başdan- başa kövrək notlara köklənib. Bu yazıçının yaşından, qəlbindən keçənlərini sonrakı nəsillərə ötürmək istəyindən doğur bəlkə də: "Ağdam azad olunandan sonra hökumət adamları və "Qarabağ" komandası ilə birlikdə şəhərə ayaq basanlardan biri də mən idim. Mikroavtobusla getmişdik. Siqaretim yadımdan çıxıb qalmışdı avtobusda. Sürücü harasa getdiyindən avtobusun qapısını aça bilmədim. Mən də "Kent 8" çəkməyi vərdiş etmişəm. Kimdən bir dənə siqaret istədimsə, heç kəsdə "Kent 8" olmadı. Bir polis zabiti gördü ki, pərt olmuşam, üzünü tutub bir serjanta dedi:

**- Ə, qaç bazardan məllimə bir "Kent səkkiz" al.**

**Serjant da qaçdı getdi olmayan bazara, hardansa bir "Kent 8" tapıb gətirdi. Polis zabitinin bu zarafatı məni kövrəltdi".**

Elə huşyar oxucunu da. Yazının sonluğu isə sanki ömürdən möhlət istəyən Aqil Abbasın sonrakı nəsillərə milli yaddaşımıza sayğı ilə bağlı sosial mesajı, vida sözüdür: "Əziz oxucu, mən Ağdam bazarını tam təsvir edə bilmədim, üstündən 35 il keçib. Və bunu ona görə yazdım ki, az-çox da olsa Ağdam bazarı haqqında həm sizdə təsəvvür yaradım, həm də ağdamlıları kövrəldim. Və gün gələcək Ağdam bazarı əvvəlkindən də böyük olacaq. Bu dəfə hardansa atom bombası tapıb gətirsələr də, amma Xanəhmədisi, Möhü kişisi, Qarağacıtorq Əhmədisi, Temir əmisi, Seyid Lazım ağası olmayacaq"...